*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s. 50-54*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p. 50-54*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с. 50-54*

**UOT: 378:37.015.3**
https://doi.org/10.30546/670832.2025.01.1255

# Ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı məsələsinə dair

**Müəllif(lər):**

**Firuzə Abdullayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** firuzeabdullayeva21@gmail.com
https://orcid.org/ 0009-0003-1761-1529

**Açar sözlər:** müstəqillik, tələbə inkişafı, pedaqoji metodlar, özünüidarəetmə, tənqidi düşüncə, sosial fəaliyyət, interaktiv təlim

**Annotasiya.** Ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı, müasir təhsil sistemində ən vacib məsələlərdən biridir. Müstəqillik, tələbələrin özünüidarəetmə, tənqidi düşüncə, məsuliyyətli qərar vermə və problemləri həll etmə qabiliyyətlərini inkişaf etdirir ki, bu da onların gələcək karyeralarında və sosial həyatlarında müvəffəqiyyət əldə etmələrinə kömək edir. Tədqiqatın məqsədi tələbələrin müstəqilliklərini inkişaf etdirən pedaqoji metodları araşdırmaq, onların effektivliyini müəyyənləşdirmək və bu metodların təhsildə tətbiqini təhlil etməkdir. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, müstəqilliyin inkişafına təsir edən müxtəlif yanaşmaların tətbiqi ilə tələbələrin sosial, intellektual və şəxsi inkişafını gücləndirmək baxımından böyükdür. Tədqiqat çərçivəsində özünüidarəetmə bacarıqları, tənqidi düşüncə, sosial fəaliyyətlər və İKT əsaslı interaktiv tədris metodları geniş şəkildə araşdırılmışdır. Tədqiqatın aparılmasında müsahibə, müşahidə və təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqat nəticələri göstərmişdir ki, müstəqilliyi inkişaf etdirən interaktiv və praktiki yanaşmalar tələbələrin motivasiyasını artırır, onlara daha müstəqil qərar vermə və sosial məsələlərdə aktiv iştirak etmə bacarıqları qazandırır. Eyni zamanda, müstəqil düşüncə və özünüidarəetmə bacarıqlarını artıran tədris yanaşmalarının tələbələrin akademik və sosial həyatına müsbət təsir etdiyi sübut edilmişdir. Tədqiqatın nəticələri gələcəkdə daha müstəqil və məsuliyyətli nəsillərin yetişdirilməsi üçün innovativ tədris metodlarının tətbiqinin vacibliyini göstərir.

## On the issue of developing university students` independence

**Author(s):**

**Firuza Abdullayeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:**firuzeabdullayeva21@gmail.com
https://orcid.org/ 0009-0003-1761-1529

**Key words:** independence, student development, pedagogical methods, self-management, critical thinking, social activity, interactive learning

**Abstract.** The development of independence of higher school students is one of the most important issues in the modern education system. This development is not limited to acquiring theoretical knowledge, but also aims to increase the ability of students to make more independent decisions in their personal and professional lives. Independence develops students' self-management, critical thinking, responsible decision-making, and problem-solving abilities, which helps them achieve success in their future careers and social lives. The purpose of the study is to investigate pedagogical methods that develop students' independence, determine their effectiveness, and analyze the application of these methods in education. The theoretical and practical significance of the study is great in terms of strengthening the social, intellectual, and personal development of students by applying various approaches that affect the development of independence. Within the framework of the study, self-management skills, critical thinking, social activities, and ICT-based interactive teaching methods were extensively investigated. Interview, observation, and analysis methods were used in conducting the study. The results of the study showed that interactive and practical approaches that develop independence increase students' motivation, provide them with more independent decision-making, and encourage active participation in social issues. At the same time, it has been proven that teaching approaches that increase independent thinking and self-management skills have a positive impact on students' academic and social lives. The results of the study indicate the importance of applying innovative teaching methods in order to raise more independent and responsible generations in the future.

## К вопросу о развитии самостоятельности студентов высших учебных заведений

**Автор(ы):**

**Фируза Абдуллаева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** firuzeabdullayeva21@gmail.com
https://orcid.org/ 0009-0003-1761-1529

**Ключевые слова:**
самостоятельность, развитие студентов, педагогические методы, самоуправление, критическое мышление, социальная активность, интерактивное обучение

**Аннотация.** Развитие самостоятельности студентов высших учебных заведений является одним из важнейших вопросов в современной системе образования. Независимость развивает у студентов способность к самоуправлению, критическому мышлению, ответственному принятию решений и решению проблем, что помогает им добиться успеха в своей будущей карьере и социальной жизни. Цель исследования-изучить педагогические методы, развивающие самостоятельность учащихся, определить их эффективность и проанализировать применение этих методов в образовании. Теоретическая и практическая значимость исследования велика в плане укрепления социального, интеллектуального и личностного развития учащихся за счет применения различных подходов, влияющих на развитие самостоятельности. В рамках исследования были тщательно изучены навыки самоуправления, критическое мышление, социальная деятельность и интерактивные методы обучения на основе ИКТ. При проведении исследования использовались методы интервью, наблюдения и анализа. Результаты исследования показали, что интерактивные и практические подходы, способствующие независимости, повышают мотивацию студентов, дают им навыки более независимого принятия решений и активного участия в социальных вопросах. В то же время было показано, что подходы к обучению, которые улучшают навыки независимого мышления и самоуправления, положительно влияют на академическую и социальную жизнь студентов. Результаты исследования свидетельствуют о важности применения инновационных методов обучения для воспитания более самостоятельного и ответственного поколения в будущем.

**Giriş.** Hər bir xalqın və dövlətin inkişafı, formalaşması və onun gələcəyinin güclü təməllər üzərində qurulması təhsil sistemində əldə olunan nailiyyətlərdən asılı olaraq formalaşır. Təhsilin inkişafı nəticəsində qloballaşmaqda olan insan kapitalı, başqa sözlə, insan potensialı hər bir ölkənin sosial rifahının yüksəlməsində vacib rol oynayır. Məhz bu baxımdan insanların mümkün bilik və bacarıqlar əldə etməsi, cəmiyyətdə özünə yer tapmasında təhsil, xüsusən də, ali təhsil ən mühüm vasitə hesab olunur. Aparılan araşdırmalara görə cəmiyyətdə yetişən fərdlərin ali təhsil dövründə sosial həyata adaptasiyası, onların cəmiyyətə töhfə verən bilik, bacarıq və vərdişlər əldə etməsi və müstəqillik meyillərinin güclənməsi hazırki dövr üçün prinsipial bir əhəmiyyət kəsb edir. Eyni zamanda ali məktəblərdə təhsil alan tələbələrin müstəqilliyinin inkişaf etdirilməsi istiqamətində atılan addımlar düşünən, tədqiq edən, komanda daxilində işləyən və liderlik qabiliyyətlərinə malik olan fərdlərin yetişməsinə, onların iş və sosial həyatlarında daha uğurlu olmasına gətirib çıxarır. Bu baxımdan, ali təhsilə olan tələb sürətlə artır, dövlətin və cəmiyyətin bu sahəyə olan diqqəti yüksəlməkdə davam edir, bir sıra ölkələrdə ali təhsil qurumları yaradılır, həmçinin mövcud təhsil müəssisələrinin potensialı artırılır və ali təhsil müəssisələrinin optimallaşdırılması prinsipi aparılır.

Qeyd edək ki, ali məktəblərdə təlimin təşkili, müxtəlif sahələr üzrə geniş və müstəqil təhsil proqramları, peşəkar təlim və təcrübə proqramları ilə əhatə olunur. Bu məktəblərdə müəllim kadrları geniş bacarığa və təcrübəyə sahib olmalıdır və tələbələrin peşəkar hədəflərini həyata keçirmələri üçün lazım olan bacarıqları öyrətməlidirlər. Tələbələrin peşəkar maraqlarını və bacarıqlarını qiymətləndirmək üçün bəhs edilən müsahibə və qiymətləndirmə prosesləri, müasir təhsil proqramları ilə tələbələrə geniş mövzularda təlim vermək, həm də onları konkret sahələrə yaxınlaşdırmaq üçün spesifik peşəkar təlimlər, təlimin effektivliyini qiymətləndirmək üçün müəyyən edilmiş standartlar ilə müstəqil nəzarət və qiymətləndirmə prosesləri təşkil etmək, müəllim kadrlarının müstəqil təhsil sahəsində geniş təcrübəyə sahib olmaları və müəssisənin məqsədlərinə uyğun olaraq təlim proqramlarını təşkil etməyə nail olmaq və s. kimi proseslər tələbələrin peşəkar inkişafını təmin edərək ali məktəblərdə effektiv təlimin təşkil edilməsinə kömək edir.

Ali təhsildə, tələbələrin müstəqilliyini inkişaf etdirmək üçün bir çox fərqli meyllər və tədbirlər mövcuddur. Bu meyllər, tələbələrə öz potensiallarını maksimum səviyyəyə çıxarmaq, tədqiqat və təcrübə qazanmaq, kreativ düşünmək və özünü idarə etmək üçün nailiyyət qazandırmağa nail olmağı məqsədilə təşviq edilir. Ali təhsil müstəqil fikir və özünü idarə etmə bacarığına əhəmiyyət verir. Tələbələr öz həftəlik və günlük qrafiklərini təyin edib, öz hədəflərini qoyaraq, vaxtlarını effektiv şəkildə idarə etməyi öyrənməlidirlər. Onlar təhsil proqramının əlavəsində müstəqil tədqiqat apara bilər və öz marağının üzərində çalışa bilər. Bu, onların təhsil sahəsində daha dərin inkişaf etməsinə və öz potensiallarını daha da genişləndirməsinə kömək edir. Ali təhsil müstəqil təşkilatlandırma bacarığını inkişaf etdirməyə nail olmağa imkan verir. Tələbələr layihələr, imtahanlar və digər tədqiqatları effektiv şəkildə təşkil etməyi öyrənərək müstəqillik yolunda daha böyük nailiyyətlər əldə edirlər.

Ali təhsil tələbələrini kreativ düşünməyə təşviq edir. Onlar müstəqil fikirləri müəyyən etmək və yaradıcı problemlər üzərində düşünmək üçün təşviq olunur. Tələbələr, müstəqil fəaliyyətlər kimi təhsil daxilində olmayan mövqe təşkilatları və klublarda yer alırlar. Bu, onların sosial bacarıqlarını, liderlik təcrübələrini və özünü idarə etmə bacarığını inkişaf etdirməyə yardım edir

**Material və metodlar.** Tədqiqatda müxtəlif tədqiqat metodları istifadə olunmuşdur. İlk növbədə, ədəbiyyat təhlili metodu tətbiq edilərək mövcud elmi mənbələr və pedaqoji yanaşmalar araşdırılmışdır. Bu metod vasitəsilə ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı ilə bağlı nəzəri biliklər əldə edilmişdir.

Müəyyənedici mərhələdə, tələbələrin müstəqilliyinin inkişafı ilə bağlı mövcud vəziyyətin araşdırılması üçün sorğu və müsahibə metodlarından istifadə olunmuşdur. Sorğular vasitəsilə tələbələrin müstəqil düşüncə və qərar qəbul etmə bacarıqları, həmçinin onların təhsil mühitindəki təcrübələri toplanmışdır. Müəllimlər və tələbələr arasında keçirilən müsahibələrdə isə müstəqilliyin tədris prosesindəki rolu və müstəqilliyin inkişafına təsir edən amillər öyrənilmişdir.

Tətbiqi mərhələdə, müstəqilliyin inkişafı-

na yönəlmiş proqramlar hazırlanaraq, müşahidə metodu ilə tələbələrin həmin proqramları necə tətbiq etdikləri izlənmişdir. Eyni zamanda, təhlil metodu tətbiq olunaraq proqramların təsiri qiymətləndirilmiş, tələbələrin inkişafı və müstəqillik səviyyələrindəki dəyişikliklər təhlil olunmuşdur. Müəyyən olunan dəyişikliklər və inkişaflar əsasında metodların effektivliyi qiymətləndirilmişdir.

Nəticələr göstərir ki, sorğu, müsahibə, müşahidə və təhlil metodlarının tətbiqi, tələbələrin müstəqilliyinin inkişafını qiymətləndirmək və təhlil etmək üçün effektiv alətlər olmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti, ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı mövzusunda əldə edilən nəzəri və metodoloji nəticələrin gələcək araşdırmalarda və tədris prosesində tətbiq olunma imkanları ilə müəyyən edilir. Bu tədqiqat çərçivəsində əldə edilən nəticələr, tələbələrin müstəqil düşüncə, qərar qəbuletmə və özünütəşkil bacarıqlarının inkişafına dair yeni yanaşmalar və metodların müəyyənləşdirilməsinə xidmət edir. Nəzəri baxımdan, bu araşdırma tələbələrin müstəqilliyinin inkişafını dəstəkləyən pedaqoji metodların effektivliyini təhlil edərək, təhsil sistemində bu sahənin əhəmiyyətini vurğulayır və gələcək tədqiqatlar üçün zəngin bir nəzəri baza yaradır.

Tədqiqatın praktiki əhəmiyyəti isə, əsasən, ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində tədris prosesində istifadə perspektivləri ilə bağlıdır. Tədqiqatın nəticələri, ali məktəb tələbələrinin müstəqilliyinin inkişafını dəstəkləyən xüsusi proqramların və tədris metodlarının hazırlanmasına yardımçı ola bilər. Praktik olaraq, tədqiqatın nəticələri universitetlərdə keçirilən mühazirələr, seminarlar və praktiki dərslər üçün əlavə vəsait olaraq istifadə oluna bilər. Eyni zamanda, bu nəticələr təhsil müəssisələrində tələbələrin müstəqilliyini artıran yeni tədris yanaşmalarının inkişafı və tətbiqi üçün rəhbər prinsiplər təqdim edir. Tədqiqatın nəticələri həmçinin, müəllimlərə və tədris heyətinə tələbələrin müstəqilliyinin inkişafına dair yeni təcrübələr və pedaqoji metodlar tətbiq etməyə imkan verir.

**Nəticə və müzakirələr.** Bu mövzu müxtəlif ədəbiyyatlarda araşdırılıb. İlk növbədə, pedaqoji və psixoloji ədəbiyyatda ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı və müstəqil düşüncə bacarıqları geniş şəkildə təhlil edilmişdir. Xüsusilə, John Dewey və Lev Vıgotski kimi məşhur təhsil nəzəriyyəçiləri, şagirdlərin və tələbələrin müstəqilliklərini inkişaf etdirmək üçün tədris yanaşmalarını və sosial-interaktiv metodları vurğulamışlar. Paulo Freire "Pedagogy of the Oppressed" əsərində tənqidi düşüncənin inkişafı və müstəqil düşüncənin təhsildəki rolu üzərində dayanmışdır. Həmçinin, Howard Gardner tərəfindən təqdim olunan çoxlu intellektlər nəzəriyyəsi, tələbələrin müstəqil düşünmə və özünü ifadə etmə bacarıqlarının inkişafını təmin edən fərqli tədris metodları nəzərdən keçirilmişdir [3, s.234].

David Kolb tərəfindən təklif olunan təcrübə yolu ilə öyrənmə nəzəriyyəsi də bu sahəyə aid edilə bilər, çünki o, tələbələrin təcrübəyə əsaslanan öyrənmə prosesini və bu prosesin müstəqil düşüncənin inkişafına necə təsir etdiyini izah edir. Jack Mezirow tərəfindən təklif edilən "transformativ öyrənmə" konsepti də tələbələrin düşüncə və davranışlarını dəyişdirən metodları araşdırmışdır. Müasir pedaqoji yanaşmalarla bağlı Hilda Taba və Benjamin Bloom kimi alimlər də təhsil prosesində tələbələrin düşüncə və müstəqil fəaliyyətlərini necə inkişaf etdirə biləcəyimizi müzakirə etmişlər. David Perkins və Seymour Papert kimi təhsil nəzəriyyəçiləri isə texnologiyanın öyrənmə prosesinə təsirini və tələbələrin müstəqilliklərini necə inkişaf etdirdiyini təhlil edirlər.

Bütün bu ədəbiyyatlar, ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı mövzusunda fərqli yanaşmalar və metodların tətbiqinin nəzəri əsaslarını təqdim edir, eyni zamanda gələcək tədqiqatlar üçün istiqamət verir.

Ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı, onların şəxsi və akademik bacarıqlarının formalaşması, fəaliyyət strategiyalarının düzgün qurulması üçün çox vacibdir. Ali məktəb tələbələrinin müstəqilliyinin inkişaf etdirilməsi istiqamətində müxtəlif təkliflər mövcuddur:

*Məqsəd amili.* Tələbələr həm akademik, həm də şəxsi inkişaf üçün qısamüddətli və uzunmüddətli hədəflər qoymağı təşviq etmək, onlara daha böyük məqsədləri kiçik, idarə oluna bilən vəzifələrə bölməyi öyrətmək;

*Zamanın idarə olunması.* Cədvəllər yaratmaq və tapşırıqları prioritetləşdirməklə tələbələrə effektiv vaxt idarəetmə bacarıqlarını inkişaf etdir-

mək akademik məsuliyyətləri dərsdənkənar fəaliyyətlər və şəxsi vaxtla tarazlamağı izah etmək;

*Tənqidi düşüncə bacarıqları.* Tələbələri məlumatı sorğulamağa, təhlil etməyə və qiymətləndirməyə həvəsləndirərək tənqidi təfəkkürü inkişaf etdirmək, debatlar, müzakirələr və problem həlli fəaliyyətləri üçün imkanlar təqdim etmək;

*Qərar vermə.* Tələbələrə öz hərəkətlərinin nəticələrini anlamağa kömək edərək seçim və qərarlar qəbul etməyə icazə vermək, seçimləri təhlil etmək, müsbət və mənfi cəhətləri nəzərə almaq və məlumatlı seçimlər etməkdə onlara rəhbərlik etmək;

*Təhsil bacarıqları.* Effektiv öyrənmə üsulları, qeydlərin aparılması və təşkili üzrə təlimat vermək, onlarda müstəqil şəkildə kitabxanalar və onlayn materiallar kimi resursları tapıb istifadə etmək bacarığı formalaşdırmaq;

*Layihə əsaslı öyrənmə.* Tələbələrdən işlərini müstəqil planlaşdırmağı, icra etməyi və qiymətləndirməyi tələb edən layihə əsaslı təlim fəaliyyətlərini inteqrasiya etmək;

*Texnologiya və tədqiqat bacarıqları.* Tələbələri tədqiqat məqsədləri və müstəqil öyrənmə üçün texnologiyadan istifadəyə yönəltmək, onlayn mənbələri qiymətləndirmək və onlayn məlumatları idarə etmək də daxil olmaqla rəqəmsal savadlılıq bacarıqlarını vurğulamaq;

*Maliyyə savadlılığı.* Büdcə tərtib etmək və qənaət etmək kimi əsas maliyyə savadlılığı anlayışlarını aşılamaq, tələbələrə pulun dəyərini və məsuliyyətli maliyyə qərarlarının əhəmiyyətini anlamağa kömək etmək lazımdır [5, s.184].

Yuxarıda göstərilən tədbirlər tələbələrin müstəqilliyini inkişaf etdirməyə və öz potensiallarını maksimum səviyyəyə çıxarmağa kömək edə bilər.

Hazırki dövrdə baş verən sosial-iqtisadi və siyasi dəyişikliklər digər sahələr kimi təhsil sahəsində də müəyyən çətinliklər yaratmış, eyni zamanda onun forma və məzmununa böyük təsir göstərmişdir. Odur ki, bu sahədəki çətinlikləri aradan qaldırmaq və ölkəmizin yüksək ixtisaslı mütəxəssislərə olan tələbatını ödəmək üçün bəzi mühüm tədbirlərin görülməsi labüddür [2, s.124].

Aparılan təcrübələr göstərir ki, təhsil müəssisələri çox vaxt bu günün vəzifələrini yerinə yetirən mütəxəssislər yetişdirirlər. Lakin indiki cəmiyyətin obyektiv inkişaf şərtləri tələbələrdən təkcə bu günün vəzifələrini deyil, həm də gələcəkdə yarana biləcək mürəkkəb problemləri həll etməyi bacarmağı tələb edir. Yəni, ali təhsil sistemi ekspertlərin hazırlanmasını təmin edən və yaxın gələcəkdə baş verə biləcək dəyişiklikləri nəzərə alan şəkildə qurulmalıdır. Burada da əsas amil tələbələrin müstəqilliyinin inkişaf etdirilməsinin təmin olunmasıdır. Bunun üçün də ilk növbədə ali məktəblərdə tədris prosesinin elmi təşkilinə diqqət yetirmək lazımdır. Sözügedən istiqamətdə mütəxəssislərin modelləşdirilməsi tələb edilir ki, bu da bir neçə mərhələdə həyata keçirilir:

• elmi, texnoloji, iqtisadi və sosial proqnozlar əsasında ekspertlər tərəfindən hazırlanan profillərdə həll ediləcək problemlərin məzmununu və sayını müəyyənləşdirmək;

• müəyyən edilmiş, məqsəd olaraq təyin olunmuş potensialı müxtəlif ixtisaslar və fənlər arasında bölüşdürülmək;

• gələcək ekspertin bilik və bacarıqlarının əhatə dairəsini (o nəyi bilməli və bacarmalıdır) müəyyən etmək;

• ali təhsil müəssisələrində kadr hazırlığının əsas parametrlərini, tələbələrin müstəqil düşüncə bacarıqlarının formalaşdırılması yollarını müəyyənləşdirmək [1, s.56].

Qeyd edək ki, tədqiqatçılar modelin hazırlanması zamanı əsas çətinliyin ekspertlərin həll etməyə çalışdıqları problemin məzmununu və əhatə dairəsini təhlil etmək olduğunu bildirirlər. Bu da öz-özlüyündə təbii hal olsa belə, məsələnin bir tərəfi kimi götürülür. Çünki elm daim dəyişir, bir yerdə dayanıb durmur və elmi tövsiyələr, proqnozlar gündən-günə təkmilləşir, tamamlanır. Digər tərəf olaraq isə, hazırki dövrdə elmi informasiyaların kəmiyyəti və keyfiyyəti sürətlə artır, yenilənir, əldə olunmuş biliklər tez köhnəlir və beləliklə, yeni şəraitin tələblərinə cavab vermir. Bununla yanaşı, artıq elə yeni sahələr meydana gəlir ki, universiteti bitirdiyi vaxt mütəxəssis obyektiv olaraq həmin sahələr haqqında yüksək biliklərə malik olmur. Məhz bu baxımdan müasir dövrdə ali məktəblərdə təhsil alan tələbələrin müstəqillik meyllərinin gücləndirilməsi, onların dövrün tələblərinə uyğunlaşdırılması kadr hazırlığı işində nəzərə alınmalı və işlənməli olan başlıca məsələlərdəndir [4, s.56].

**Yekun nəticə**. Tədqiqat nəticəsində ali

məktəb tələbələrinin müstəqilliyinin inkişafının tədris prosesində mühüm yer tutduğu və bunun tələbələrin akademik uğurları, şəxsi inkişafı və cəmiyyətə faydalı fərdlər kimi yetişməsində böyük rol oynadığı aşkar olunmuşdur. Müəllimlərin tətbiq etdiyi müasir pedaqoji metodlar, tələbələrin müstəqil düşünmə və qərar qəbul etmə bacarıqlarını artırır. Tədqiqatda müəyyən edilmişdir ki, interaktiv dərs metodları və praktiki fəaliyyətlər tələbələrin müstəqilliklərini inkişaf etdirən ən effektiv yanaşmalardır. Eyni zamanda, tələbələrin sosial fəaliyyətlərə cəlb edilməsi, müstəqil öyrənmə vərdişlərinin formalaşmasına kömək edir. Tədqiqatın nəticələri göstərir ki, müstəqilliyin inkişafı üçün tələbələrin düşüncə tərzini dəyişdirən tədris yanaşmaları və aktiv öyrənmə metodları vacibdir. Gələcək tədqiqatlar bu sahədə mövcud metodların daha da inkişaf etdirilməsi və yeni yanaşmaların tətbiq olunması üzərində fokuslanmalıdır. Ümumilikdə, tədqiqat ali təhsil müəssisələrində tələbələrin müstəqilliklərini artırmaq üçün tədris prosesində daha effektli metodların tətbiqinin vacibliyini göstərir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası. // Təhsil xəbərləri (TN-nin məlumat-informasiya məcmuəsi). – Bakı: Pedaqogika, – 2007. – s.20-21.
2. Bayramov, Ə.S. Psixologiya / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı: – 2003.
3. Əliyev, B.H. Şəxsiyyətə yeni baxış // Elm XXI əsrin astanasında elmi-praktik konfransın materialları. – Bakı: Renessans, – 1998.
4. Əliyev, N.A. Cəmiyyətin psixi sağlamlığı problemlərinə müasirlik və islami mövqelərdən baxış // N.A.Əliyev, G.K.Adıgözəlova. Azərbaycan Psixiatriya Jurnalı, №2 (9), – 2004. – s.7.
5. Psixi sağlamlığın qorunmasına dair Avropa bəyannaməsi. // Azərbaycan Psixiatriya Jurnalı, №12, – 2006. – s.7-17.


*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 21.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 10.03.2025